# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 70** **Bakı şəhəri, 5 mart 2022-ci il**

***"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli 1460 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1312) ilə təsdiq edilmiş "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.4.10-cu yarımbəndə "hesabatlar almaq," sözlərindən sonra "Nazirliklə razılaşdırmaqla" sözləri əlavə edilsin.

**2.** 6.9.5-ci yarımbəndə "vəzifəyə təyin" sözlərindən əvvəl "Nazirliklə razılaşdırmaqla" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 6 mart.- S.6.